

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 156 (23.568)

17 sentyabr 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Nazirlər Kabinetində sentyabr ayının ilk 15 günü ərzində müəyyən qərarlar qəbul olunmuşdur

İki sentyabr tarixdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bir sıra qərarlarında dəyişikliklər edilmişdir. Nazirlər Kabinetinin 155 nömrəli Qərarına əsasən "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli 16 nömrəli Qərarında dəyişiklik edilmişdir. Həmçinin "Naxçıvan Muxtar Respublikasında yeyinti məhsullarına verilən qida təhlükəsizliyi sertifikatının forması və verilmə Qaydaları"nın təsdiq edilməsi haqqında" Qərar qəbul edilmişdir. Qərara əsasən muxtar respublikaya idxal edilən yeyinti məhsulları qanunvericiliyə əsasən tanınmış və ya bu qaydalara uyğun olaraq Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən verilmiş qida təhlükəsizliyi sertifikatına malik olmalıdır.

Adıçəkilən qərarlarla yanaşı, 2 sentyabr tarixli Qərara əsasən "Naxçıvan Muxtar Respublikasında qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və dövlət reyestrinin aparılması Qaydaları" təsdiq edilmişdir. Qeyd edək ki, bu qaydalar Naxçıvan Muxtar Respublikasında qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və qeydiyyata alınmış subyektlərin dövlət reyestrinin aparılması qaydalarını müəyyən edir. Eləcə də "Naxçıvan Muxtar Respublikasında yeyinti məhsullarına verilən uyğunluq sertifikatının və baytarlıq şəhadətnaməsinin formasının və uyğunluq sertifikatının və baytarlıq şəhadətnaməsinin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Qərar qəbul edilmişdir. Bu qayda mülkiyyət formasından asılı olmayaraq, AZS Milli Sertifikatlaşdırma Sistemində qanunvericiliklə müəyyən olunmuş qaydada akkreditasiya edilmiş qurumlar, həmçinin sistemin üzvləri, iştirakçıları və sahibkarlıq fəaliyyətinin subyektləri olan idarə, müəssisə və təşkilatlar üçün məcburidir. Yeyinti məhsullarının keyfiyyət göstəricilərinin müvafiq standartla müəyyən olunmuş tələblərə uyğunluğunu müəyyən etmək məqsədilə istehsalçının öz istəyi əsasında yeyinti məhsulları akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən könüllü sertifikatlaşdırılır.

Nazirlər Kabinetinin 159 nömrəli Qərarına uyğun olaraq "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə Naxçıvan Muxtar Respublikasında dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin muxtar respublikaya gətirilməsi və muxtar respublika daxilində daşınması Qaydaları" təsdiq edilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 avqust tarixli 143 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında mehmanxanaların fəaliyyətinin təşkili Qaydaları"nda da dəyişiklik edilmişdir. Nazirlər Kabinetinin 10 sentyabr tarixli 161 nömrəli Qərarına uyğun olaraq "Xüsusi karantin rejimi dövründə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili Qaydaları" təsdiq olunmuşdur.

Adıçəkilən qərarlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin ərzaq payı ilə təmin olunan vəzifəli şəxslərinin Siyahısı"nda dəyişiklik edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Standartların tələbləri təmin edilir



***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işi, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin və məhsul göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğunun diqqətdə saxlanılması avqust ayı ərzində də davam etdirilmiş, ümumilikdə, məhsul nümunələrinin 219 halda, o cümlədən qida məhsullarının 193 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin olunmuş və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.***

Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 93 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür.

Meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması məqsədilə sertifikatlaşdırma prosedurları və monitorinqlər üzrə avqust ayı ərzində, ümumilikdə, məhsulların 33 halda texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu yoxlanılmış və nöqsan aşkar olunmamışdır.

Arıçılığın inkişafı üzrə müvafiq Dövlət proqramının icrası istiqamətində bal məhsullarının 115 halda laboratoriya analizləri aparılmış, sınaqların nəticələrinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Həmçinin avqust ayı ərzində, ümumilikdə, 7 ailə təsərrüfatına istehsal etdikləri məhsulların etiketlərinin hazırlanmasında müvafiq köməklik göstərilmişdir. Ailə təsərrüfatı məhsullarının keyfiyyəti diqqətdə saxlanılmış, məhsullardan 115 halda nümunələr götürülərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Hesabat ayı ərzində alkoqollu içkilər istehsal edən 3 müəssisədə istehsal olunan arağın 2 halda, pivənin 1 halda laboratoriya analizləri aparılaraq standartlara uyğunluğu müəyyən edilmişdir. 138 bərbərxana və 54 gözəllik salonuna, 36 ət satışı mağazasına, 102 ictimai iaşə və xidmət sahəsinə, 323 ərzaq və qeyri-ərzaq mağazasına maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması təmin edilmişdir. Fəaliyyətin standartlara uyğun qurulması məqsədilə, ümumilikdə, 36 təsərrüfat subyektində, o cümlədən 3 istehsal müəssisəsində, 1 ictimai iaşə və xidmət sahəsində, 8 ərzaq mağazasında, 23 bərbərxana və 1 gözəllik salonunda təmir işləri başa çatdırılmışdır. Metroloji norma və qaydalara uyğun olaraq 1868 ölçmə vasitəsi yoxlanılmışdır.

Muxtar respublikada istehsal olunan məhsulların markalanmasına nəzarət məqsədilə 8 istehsal müəssisəsində maarifləndirmə xarakterli monitorinqlər aparılmış, 3 müəssisədə istehsal olunan məhsulların etiketlərində orfoqrafik səhvlərin olduğu və standartların tələblərinin pozulduğu aşkarlanmış, çatışmazlıqların aradan qaldırılması üçün müvafiq təsərrüfat subyektləri məlumatlandırılmışdır.

Ticarət, ictimai iaşə, məişət və digər növ xidmət qaydalarına uyğun olaraq idxal olunmuş məhsulların üzərinə 1 halda Azərbaycan dilində zəruri məlumatların vurulması təmin edilmişdir.

Ötən ay istehlak bazarının tələblərinə uyğun rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsi, ailə təsərrüfatları məhsullarının ixracına dəstək göstərilməsi üzrə verilmiş tapşırıqların icrası istiqamətində təsərrüfat subyektləri ilə 18 halda abonent müqaviləsi bağlanıb. İstehsal edilən məhsulların ixrac olunacaq ölkələrə uyğun markalanması, beynəlxalq idarəetmə standartlarının tətbiqi, zərurət yarandıqda ixrac məhsullarının partiyalarla sertifikatlaşdırılmasının təmin edilməsi, təsərrüfat subyektlərinə məxsus əmtəə nişanlarının məhsul ixrac olunacaq ölkələrdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı vasitəsilə beynəlxalq mühafizəsi üçün informativ xidmətlər haqqında məlumatlar müəssisə rəhbərlərinin diqqətinə çatdırılmışdır. Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilir. Müvafiq istiqamətdə satılan məhsulların aylar üzrə uçotu aparılmaqdadır.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə avqust ayı üzrə, ümumilikdə, 471 qaz məişət cihazına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan 3 qaz məişət cihazının idxalına icazə verilməmişdir.

Ötən ay ərzində, ümumilikdə, texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olmayan 506 manat dəyərində keyfiyyətsiz məhsullar satışdan çıxarılmışdır.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

## Yeni elektron xidmətin təqdimatı keçirilib



Muxtar respublikada dövlət orqanlarının fəaliyyətində elektron xidmətlərin həcmi ilbəil artmaqdadır. Son dövrlərdə bu istiqamətdə yeni layihələr icra edilir, mütərəqqi və innovativ yeniliklər tətbiq edilir. Sosial müdafiə sahəsində də bu istiqamətdə fəaliyyət təkmilləşdirilir, yeni elektron xidmətlər istifadəyə verilir.

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul edilmiş fəaliyyət proqramında, elektron xidmətlərin genişləndirilməsinə dair verilmiş tapşırığın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində yeni elektron məlumat bazası istifadəyə verilib. Bununla əlaqədar keçirilən tədbirdə nazirlik yanında Dövlət Sosial Təminat Xidmətinin əməkdaşı Yusif Piriyev çıxış edərək muxtar respublika üzrə müavinət, təqaüd və kompensasiya ödənilən vətəndaşlar haqqında yaradılmış mərkəzləşdirilmiş məlumat bazasının istifadəsi qaydaları haqqında məlumat verib. Xidmətin əməkdaşı tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb. Bildirilib ki, yeni istifadəyə verilən baza Dövlət Sosial Təminat Xidməti ilə onun yerli bölmələri arasında müvafiq məlumat mübadiləsini operativ və çevik qaydada təşkil etmək üçün yaradılıb. Bu məqsədlə nazirlikdə bütün növ ödənişlərin müvafiq elektron informasiya resursları vasitəsilə mütəmadi olaraq bazaya daxil edilməsi və məlumatların vahid mərkəzdən idarə olunması üçün server quraşdırılıb.

Tədbirdə sözügedən məlumat bazasının əhəmiyyətindən bəhs olunub, fəaliyyət istiqamətləri haqqında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, dizayn və funksionallıq baxımından müasir tələblərə cavab verən mərkəzləşdirilmiş məlumat bazası, Dövlət Sosial Təminat Xidmətinin və müvafiq yerli təşkilatların əməkdaşlarının fəaliyyətində operativliyin və səmərəliliyin artırılmasına zəmin yaradacaq, bu sahədə elektron xidmətlərin əhatə dairəsinin daha da genişləndirilməsinə təkan verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir



Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər avqust ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan 3 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə daxil olan 325 müraciətdən 99-u əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 226 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 49-u elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Vətən sərhəddən başlayır*

# Etibarlı əllərin müqəddəs əmanəti...

***Ötən günlərdə 8-ci Sərhəd Zastavası üçün istifadəyə verilən yeni xidmət və yaşayış kompleksi ilə tanış olmaq, sərhədlərimizin keşiyində mətinliklə dayanan vətənpərvər oğullarla söhbət etmək üçün adıçəkilən ünvana üz tutarkən yolboyu mobil telefonumun yaddaşına qeyd etdiyim fikirlər diqqətimə hakim kəsilir: "Muzdlu qoşunlara güvənən hakimiyyət heç zaman möhkəm və uzunömürlü ola bilməz, çünki muzdlu əsgərlər arasında birlik yoxdur, onlar təkəbbürlü, intizamsız, xəyanətkar olurlar, dostlarla münasibətdə davakar, düşmənə qarşı qorxaqdırlar. Belə əsgərlərin məğlubiyyəti yalnız qəti döyüşün təxirə salındığı müddət qədər yubanar. Sülh dövründə əsgər olmaq xoşlarına gələr, amma müharibə başlayan kimi döyüş meydanından qaçıb uzaqlaşarlar". İtalyan filosof və yazıçısı Nikkolo Makiavellinin "Oxunması zəruri olan kitabların Siyahısı"nda yer alan "Hökmdar" əsərindəki bu qısa və dərin məzmunlu fikirləri diqqətlə nəzərdən keçirdikcə tarixboyu məkrli planlar ardınca qaçan, özgə kölgəsində gizlənməyi fəxarət hesab edən, Aprel döyüşlərindən, Günnüt əməliyyatından, eləcə də bu ilin iyul ayında törətdikləri təxribatdan layiqli dərs alan, böyük itki verərək kor-peşman geri oturdulan, yazıqlıq, miskinlik libasına bürünən bədnam qonşularımız, zorla irəli qovaladıqları yarı erməni, yarı başqa millətlərdən olan muzdlu əsgərlərin silahı döyüş meydanında atıb geriyə qaçması canlanır gözlərim önündə...***



Bəli, istənilən qədər silah-sursat, texnika almaq olar, ancaq Vətəni könüldən sevən  əsgəri olmadısa, o dövlətin öz gücünə arxalanaraq öyünməyi yersizdir. Yurdun dar günündə silahı əlindən yerə qoymayan, onu son damla qanınadək göz bəbəyi kimi qoruyan Mübariz, Qabil, Polad kimi oğulları olan elin, obanın isə hər zaman qürurlanmağa, fəxr duymağa haqqı var. Elə bu yazının qəhrəmanları, adını çəkdiyim zastavada xidmət keçən, sərhədlərimizin keşiyini hər an mətinliklə, dəyanətlə qoruyan əsgərlərimiz də döyüş andına sadiq qalaraq canından keçən oğullarımızın qürur dolu igidlik məktəbinin şagirdləridir. Hər gün yeni bir şücaət, qəhrəmanlıq salnaməsi öyrənir, aldıqları biliklərlə, praktik vərdişlərlə gələcəkdə yazılacaq yeni bir igidlik dastanının təməlini qoyurlar. Hərbi hissədə yaradılan gözəl şərait isə dövlətimizin hər zaman öz əsgərinin yanında olduğunu, onu hərtərəfli qayğı ilə əhatə etdiyini göstərir. Zastava rəisi, baş leytenant Millət Əliyev söhbət zamanı bu yaxınlarda 8-ci Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində Ali Məclis Sədrinin dediyi ***"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti bundan sonra da hərbi intizama ciddi əməl etməli, sərhəd nəzarəti və xidməti fəaliyyət günün tələbləri səviyyəsində qurulmalı, hərbi qulluqçuların peşəkarlığı artırılmalıdır. Sərhədçilər sərhədlərin mühafizəsi ilə yanaşı, həm də narkotik maddələrin və silah-sursatın qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı da mübarizədə sayıqlıq göstərməli, əməliyyat şəraiti daim nəzarətdə saxlanılmalıdır. Sərhəd hər bir ölkənin müstəqillik rəmzidir. Sərhədləri etibarlı qorunan ölkədə inkişaf və sabitlik də davamlı olur. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti də Azərbaycan Respublikasının muxtar respublikadakı 234 kilometrlik sərhəd ərazisini etibarlı mühafizə edir"*** müdrik kəlamları xatırladaraq bildirir ki, bu gün şəxsi heyətin qarşısında duran ümdə vəzifə muxtar respublika rəhbərinin verdiyi tapşırıq və tövsiyələrə əməl edərək bu şərəfli işi layiqincə yerinə yetirməkdir. Onu da qeyd edir ki, zastava uzun müddət 1932-ci ildə tikilmiş binada fəaliyyət göstərib. Müstəqillik illərində bina bir neçə dəfə təmir olunsa da, tam yararlı şəkildə deyildi. Dövlətimizin qayğısı sayəsində ötən ildən başlayaraq qərargah, sərhədçi ailələri üçün yaşayış binası, eləcə də digər xidməti və yardımçı tikililərdən ibarət kompleks inşa olunaraq istifadəyə verilib. İkimərtəbəli qərargah binasında 48 yerlik yataqxana, 32 yerlik yeməkxana, anbar və iş otaqları yerləşir. Yaşayış binasında lazımi məişət əşyaları, mebel dəstləri və istilik sistemi ilə təchiz edilən hər biri 2 otaqdan ibarət 8 mənzil sərhədçi ailələrinin ixtiyarındadır. Bundan əlavə, ərazidə hamam-camaşırxana, qazanxana, əşya, ərzaq, tərəvəz, yanacaq-sürtkü materialları və silah anbarları, avtomobillər üçün 2 saxlanc yeri də tikilib. Eyni zamanda xidməti heyvanların saxlanması üçün yardımçı bina da istifadəyə verilib, vertolyot meydançası yaradılıb və müşahidə qülləsi təmir edilib ki, bütün bunlar xidmətin lazımi səviyyədə təşkilinə geniş imkanlar açıb. Bir sözlə, sərhədin etibarlı təminatı üçün dövlətimiz tərəfindən nə lazımdırsa edilib, şəxsi heyətin asudə vaxtını səmərəli keçirməsi üçün istirahət köşkü də yaradılıb. Tanışlıq zamanı o da aydın olur ki, şəxsi heyətin qidalanmasına ciddi nəzarət edilir, keyfiyyətli yerli ərzaq məhsulları düzgün şəraitdə saxlanılır, xüsusilə qış aylarında yemək menyularına immuniteti gücləndirən təbii qidalar əlavə olunması nəzərdə tutulub.





Millət Əliyev onu da deyir ki, günümüzədək dünya tarixində baş verən müharibələrin, sərhəd pozuntuları zamanı yaranan münaqişələrin nəticələrini təhlil edəndə qazanılan qələbələrin, uğurların təməlində heç də təkcə texniki üstünlüyün əsas olmadığı, döyüş hazırlığının da böyük rol oynadığı ortaya çıxır. Türk tarixinin şanlı səhifələrindən sayılan Çanaqqala zəfərini, eləcə də ölkəmiz müstəqillik əldə etdikdən sonra ordumuzun qazandığı qələbələri, xüsusilə də Aprel döyüşləri və Günnüt əməliyyatını, sərhədlərimizi pozmağa cəhd halları zamanı sərhədçilərimizin ayıq-sayıq davranışlarını buna ən gözəl nümunə göstərmək olar. Bu baxımdan sərhədlərimizin gecə-gündüz etibarlı şəkildə əminliklə qorunması üçün şəxsi heyətin təlim-tərbiyəsini, döyüş hazırlığını diqqətdə saxlamaq önəmlidir. Yeni istifadəyə verilən kompleksin inşası zamanı bütün bunlar nəzərə alınaraq lazımi şərait yaradılıb, həm binadaxili təlim-tədris otağı inşa olunub, həm də açıq havada maneələr, mühəndis, istehkam qurğuları, taktiki sahələrdən ibarət tam müasir formada şəhərcik qurulub ki, əsgərlər döyüş qabiliyyətini inkişaf etdirərək peşəkar sərhədçi kimi yetişə bilsinlər.

Zastavada yaradılan şəraitlə tanış olduqdan sonra sərhədçi peşəsini şərəflə öz çiyinlərində daşıyan digər oğullar və burada yaşayan sərhədçi ailələri ilə də söhbət edirəm. Onlardan Cocuq Mərcanlı kəndindən xidmətə yollanan leytenant Rəşad Alıyev Dövlət Sərhəd Xidməti Akademiyasından məzun olub, 3 ildir ki, sərhədlərimizin keşiyini çəkir. Deyir, əvvəllər muxtar respublikada yerləşən 4 və 9-cu Sərhəd zastavalarında xidmət keçmişəm, cari ilin aprel ayından isə buraya təyinat aldım. Əvvəlki xidmət yerlərimdə olduğu kimi, 8-ci zastavada da həm özümün, həm də əsgərlərin döyüş və fiziki hazırlıqlarının artırılmasına, ciddi fikir verməyə çalışıram. Kiçik xidmətim ərzində sərhədin müqəddəsliyi barədə deyilən mütərəqqi fikirlərin doğruluğuna bir daha əmin oldum. Bəli, doğru söylənilib ki, hər bir ölkənin təhlükəsizliyi, əmin-amanlığı, ilk növbədə, onun sərhədlərindən başlayır. Sərhədləri etibarlı şəkildə qorunmayan yurdun inkişafı uzun sürməz. Bunun üçün də sərhədçi fiziki cəhətdən tam hazırlıqlı, dünyagörüşlü, insanlarla yaxşı ünsiyyət qura bilmək bacarığına malik olmalı, bu istiqamətdə yetişməlidir. Yeni istifadəyə verilən kompleksdə bunun üçün lazımi infrastruktur qurulub. Çalışırıq ki, yaradılan şəraitdən səmərəli istifadə edib həm öz peşəkarlıq səviyyəmizi artıraq, həm də əsl vətənpərvər sərhədçi gənclər yetişdirək.



Yeni xidməti mənzillə təmin olunan ailənin xanımı Aysu Mahmudova deyir ki, yoldaşım Elçinin xidmət keçdiyi zastavada bizə də mənzil verilməsi, sosial-məişət şəraitimizin yaxşılaşdırılması hədsiz sevincimizə səbəb oldu. İndi Elçin xidmətə yola düşəndə gözü arxada, fikri övladının yanında qalmır, çünki dövlətimiz elə gözəl şərait yaradıb ki, heç bir çətinliyimiz yoxdur. Bütün hərbçi ailələri adından yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq edirəm.

Fəqan Abdullayev ötən ilin iyul ayında Bərdə rayonundan 8-ci Sərhəd Zastavasına xidmətə yollanıb. Deyir ki, yeni kompleksin istifadəyə verilməsi xidmətdə olduğum dövrə təsadüf etdiyi üçün çox sevinirəm. Çünki burada yaradılan şərait dünyanın ən inkişaf etmiş ölkələrinin sərhəd qoşunlarındakı kimi nümunəvi səviyyədədir, həm nəzəri, həm də praktik vərdişlərə yiyələnmək üçün bütün imkanlar mövcuddur. Təlim şəhərciyində maneələr, istehkam qurğuları, taktiki sahələr tam müasir formada qurulduğu üçün gücümüzü, qabiliyyətimizi əvvəlkindən daha artıq inkişaf etdirə bilirik. Hədəflər orijinal üslubda olduğundan özümüzü, sanki qarşımızda düşmən dayanırmış kimi hiss edirik. Beləcə, əzmimiz güclənir, hədəfin məhvinə can atdıqca bacarığımızı da artıra bilirik. Bundan əlavə, sərhədçi peşəsinin sirlərini də həm nəzəri, həm də praktik şəkildə öyrənir, postu təhvil-təslim zamanı, eləcə də sərhəddə dayandığımız müddətdə komandirlərimizin verdikləri tapşırıqlara uyğun hərəkət edir, ayıq-sayıqlıqla keşik çəkirik. Onu da yaxşı dərk edirik ki, doğma torpağımız vətənpərvər övladları ilə daim öyünüb. Bütün hissələrdə olduğu kimi, bizim zastavada da hər bir zabitin, əsgərin dilində böyük məna kəsb edən: "Hamı bir nəfər, bir nəfər hamı üçün!" şüarı vardır. Komandirlərimiz dərslər, təlimlər zamanı bu sözlərin mahiyyətini aşılamaqla bizi birliyə, bərabərliyə səsləyir. Gözəl bilirik ki, bugünkü xidməti uğurlarımızın təməlində məhz bu prinsip dayanır. Dərslər zamanı Vətən yolunda canından keçən mərd oğullarımızın al qanları ilə yazdıqları şanlı səhifələri də vərəqləyir, həmin igidlərdən nümunə götürərək bu şərəfli işə, peşəyə layiq olmağa, var gücümüzlə, qabiliyyətimizlə sərhədlərimizin bütövlüyünü qorumağa çalışırıq. Bu müqəddəs yolda bizə daim öz diqqət və qayğısını əsirgəməyən, bütün lazımi şəraitlə təmin edən dövlətimizə də minnətdarıq.

*Deyirlər, arxası dağ olanın başı göylərə çatar. Bu gün blokada şəraitində yaşayan, böyük inkişaf və tərəqqi yolunda inamla irəliləyən muxtar respublikamızın hər dağında, qayasında keçilməz sədd yaradan dağ əzəmətli Azərbaycan əsgəri dayanıb. Nə qədər ki, bu yurdun cəngavər, məğrur oğulları var, sərhədlərimizin bütövlüyü qorunacaq və əminik ki, çox yaxında "Biz haqq-ədaləti bərpa etdik, işğal altında qalan qədim, tarixi Azərbaycan torpaqlarını geri qaytardıq" kəlməsinin möhtəşəm sədasını duyacağıq...*

**✍ Nail ƏSGƏROV**

# Hərbi lisey yeni tədris ilinə uğurla başlayıb



***Muxtar respublikamızın digər təhsil ocaqları kimi, Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin də fəaliyyəti daim diqqət mərkəzində saxlanılır, tədrisin günün tələbləri səviyyəsində təşkili, kursantların hərbi biliklərə dərindən yiyələnməsi üçün hər cür şərait yaradılır.***

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, məktəbin tədris və yataqxana korpusları ən yeni avadanlıqlarla təchiz olunub. Yaradılan müasir tədris şəraiti, istifadəyə verilən əyani vəsaitlər istər hərbi, istərsə də elmi biliklərin dərindən mənimsənilməsinə və təcrübə əsasında möhkəmləndirilməsinə geniş imkanlar açır. Görülən işlər nəticəsində hərbi liseyə qəbul olunmaq üçün müraciət edənlərin sayı da ilbəil artır. Liseydə muxtar respublika ilə yanaşı, ölkəmizin digər bölgələrindən olan gənclər də təhsil alırlar. Dərs ili ərzində kursantların fiziki və mənəvi-psixoloji hazırlığı diqqətdə saxlanılır, onlar il ərzində keçirilən beynəlxalq, ölkə və muxtar respublika səviyyəli idman yarışlarında iştirak edərək layiqli yerlər tuturlar. Aldıqları mükəmməl təhsil və tərbiyəni gələcək fəaliyyəti dövründə də uğurla tətbiq edən kursantlar Azərbaycan Silahlı Qüvvələrinin sıralarında da nümunəvi xidmətləri ilə seçilirlər.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin də 15 sentyabr – Bilik Günü ilə əlaqədar keçirilən tədbirdəki çıxışı zamanı vurğuladığı kimi, 56 kursantla fəaliyyətə başlayan liseydə hazırda 338 kursant təhsil alır. Hərbi liseyin pedaqoji kollektivinin vətənpərvərliyinin və peşəkarlığının nəticəsidir ki, ötən illər ərzində hərbi liseyi 3 min 200-dən çox kursant bitirərək müxtəlif ali hərbi məktəblərə daxil olub. Bu il isə hərbi liseyi bitirən məzunlardan 145-i Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, 28-i Türkiyə Respublikasının, 9-u Rusiya Federasiyasının ali hərbi məktəblərinə daxil olub.

Qeyd edək ki, hər il olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə Heydər Əliyev adına Hərbi Liseydə təhsil almağa başlayan kursantların hər birinə tədris vəsaitləri ilə tam komplektləşdirilmiş çantalar hədiyyə edilib.

Böyük qürur hissi ilə demək olar ki, Heydər Əliyev adına Hərbi Lisey ötən tədris illərində olduğu kimi, cari tədris dövründə də ulu öndərin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi milli ordumuzun savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərlə təmin olunması yolunda səmərəli fəaliyyət göstərəcək, liseyin zabit-müəllim heyəti, kursant və məzunları yaradılmış şəraitdən səmərəli istifadə edərək bu şərəfli adı doğrultmağa çalışacaq.

**Xəbərlər şöbəsi**

*AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda bitki və heyvanlar aləminin öyrənilməsi, tədqiqi, səmərəli istifadəsi və mühafizəsinin bioloji əsaslarının araşdırılması bu elmi-tədqiqat müəssisəsinin qarşısında duran əsas vəzifələrdən biridir. İnstitutun tərkibində 4 şöbə, 4 laboratoriya, Nəbatat bağı, Təbiət muzeyi, Herbari fondu və Yaşıl aptek fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikasının fauna biomüxtəlifliyinə daxil olan onurğalı və onurğasız heyvanlar aləminin tədqiqi, genofondunun qorunması və səmərəli istifadə imkanlarının tədqiqi istiqamətində isə bu elmi qurumun Zooloji tədqiqatlar şöbəsi araşdırma aparır.*

# Naxçıvan Muxtar Respublikasının zəngin faunası öyrənilir



Elmi fəaliyyətə 2003-cü ildən başlayan və ilk günlərdən hərtərəfli dövlət qayğısı ilə əhatə olunan, səmərəli elmi fəaliyyət üçün zəngin maddi-texniki baza yaradılan şöbədə iş planına uyğun olaraq tədqiqatlar aparılıb və mühüm nəticələr əldə edilib. Belə ki, muxtar respublika şəraitində ilk dəfə olaraq kənd təsərrüfatı heyvanlarında, ev quşlarında parazitlik edən törədicilərin növ tərkibi, yüksək virulentli parazit növləri, onların müxtəlif ekoloji mühitlərdə xəstəliktörətmə qabiliyyəti, bioloji, ekoloji xüsusiyyətləri araşdırılıb. İri və xırdabuynuzlu heyvanların, ev quşlarının xəstəliklərinin kliniki gedişi, onların məhsuldarlığa təsiri, hematoloji dəyişiklikləri və sair müəyyən edilib. Cənubi Qafqazın ibtidailər faunasına ilk dəfə 3 koksidi növü əlavə olunub. Xəstəliklərin profilaktikası üçün təsirli mübarizə tədbirləri hazırlanıb.

Həmçinin muxtar respublikada gövşəyən heyvanlar arasında geniş yayılmış ağırgedişli



helmintozların törədiciləri, bioloji xüsusiyyətləri, yoluxma müddətləri öyrənilib. Region parazitofaunasına yeni helmint növləri əlavə edilib. Tədqiqat işinin nəticələri əsasında heyvandarlıqla məşğul olan fermerlər və fərdi təsərrüfat sahibləri üçün xəstəliklərin qarşısının alınmasına xidmət edən metodik tövsiyələr çap edilib.



Bununla yanaşı, Araz Su Anbarında hidrofaunanın əsas tərkib hissələrindən olan dib faunası öyrənilib. Müasir hidrobioloji metodlarla dib faunasının kəmiyyət göstəriciləri, formalaşdırdığı təbii yem bazası, dib orqanizmlərinin vətəgə əhəmiyyətli balıq növlərinin qidalanmasındakı rolu araşdırılıb, yemin enerji tutumu, qidalılıq əmsalı və həmin orqanizmlərin suların bioloji özünütəmizləmə proseslərindəki fəaliyyəti dəyərləndirilib. Hazırda muxtar respublikada içməli suyun əsas mənbəyini təşkil edən çayların dib faunası, onun əsas sistematik qrupları, biosenozların araşdırılması davam etdirilir. Hələlik ərazi hidrofaunasında 66 növ ibtidai, 300 növ infuzor, 185 növ zooplankton orqanizm, 700 növ dib onurğasızı və 32 balıq növü aşkar edilib.

Eyni zamanda muxtar respublika bağçılığında geniş yer tutan çəyirdəkli və tumlu meyvə ağaclarının 59 növ zərərverici həşəratları və onların 56 növ təbii düşmənləri ətraflı öyrənilib. Araşdırmalar zamanı 13 növ parazit və yırtıcının zərərvericilərin sayının məhdudlaşdırılmasındakı rolu və təsərrüfat əhəmiyyəti daha geniş araşdırılıb.

Şöbədə Naxçıvan Muxtar Respublikası ərazisində ətraflı aparılmış entomoloji tədqiqat işləri nəticəsində təbiətdə və kənd təsərrüfatında çiçəkli bitkilərin çarpaz tozlanmasında, onların məhsuldarlığının yüksəlməsində müstəsna fəaliyyəti ilə fərqlənən arıkimilər faunasında 7 fəsiləyə, 53 cinsə mənsub olan 335 arı növü aşkar edilib. Naxçıvan Muxtar Respublikası üçün 146 növ, Azərbaycan faunası üçün isə 77 növ ilk dəfə göstərilib. Zarqanadlıların Saplaqqarıncıqlılar yarımfəsiləsinə mənsub olan bütün növlərin ekoloji xüsusiyyətləri, zoocoğrafi mənşəyi, 4 yüksəklik qurşağı üzrə yayılması, qida əlaqələri, yuvalama yerləri və uçuş fenologiyası haqqında dəyərli nəticələr alınıb. Bu həşəratların bölgə florasında üstünlük verdikləri və zəngin növ müxtəlifliyi ilə fərqlənən bitki fəsilələri müəyyən edilib. Faunanın 15 zoocoğrafi faunistik kompleksə mənsub olmasının sübutu və təhlilinin nəticələri gələcək mütəxəssislər üçün etibarlı mənbə rolunu oynayacaq.

Bundan əlavə, ərazinin sututarlarında yayılmış 32 balıq növü ətraflı tədqiq edilib, onların morfometrik əlamətləri, bioloji xüsusiyyətləri, boy, çəki artımı, məhsuldarlığı, çoxalma ekologiyası, qidalanma xüsusiyyəti və ehtiyatı öyrənilib. Nəticədə, ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası faunası üçün 8 yeni balıq növü göstərilib. Müqayisəli təhlillərlə aşkar edilib ki, Araz Su Anbarında yaşayan bentofaq balıqlar böyümə və kütlə artımına görə Azərbaycanın digər sututarlarında yayılmış eyni növün balıq fərdlərindən xeyli üstündür.

Şöbədə, həmçinin qədim Naxçıvan torpağının ornitofaunasının ilk dəfə olaraq əsaslı şəkildə tədqiqi aparılıb və muxtar respublikanın ornitofaunasının qorunması üçün xüsusi əhəmiyyət daşıyan 7 Mühüm Ornitoloji Ərazi (MOƏ) aşkar edilib. Ərazi ornitofaunası 241 növ və 167 yarımnöv quşla təmsil olunub. Muxtar respublika və Azərbaycan faunası üçün ilk dəfə yeni, çoxsaylı taksonlar göstərilib. Hazırda digər quru onurğalıların faunası ətraflı tədqiq edilir. Muxtar respublika faunasının xüsusi qorunma statusuna malik onurğalı heyvan növləri, onların biotop mənsubiyyəti, ekoloji xüsusiyyətləri, qorunmasının əsas kateqoriyalarının müəyyən edilməsi üzərində işlər aparılır.

Qeyd edək ki, şöbədə əsaslı aparılmış zooloji tədqiqat işlərinin nəticələri 2 cilddə "Azərbaycan Respublikasının "Qırmızı kitabı" (Nadir və nəsli kəsilməkdə olan fauna növləri)", "Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabı" (Onurğalılar)", 2 cilddə "Azərbaycanın Mühüm Ornitoloji Əraziləri", "Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı", "Naxçıvan Muxtar



Respublikasının onurğasızlar faunasının taksonomik spektri", "Naxçıvan Muxtar Respublikasının zəhərli ilanları","Mühüm ornitoloji ərazilər: Naxçıvan", "Naxçıvan Muxtar Respublikasının arıkimilər faunası", "Naxçıvan Muxtar Respublikasında çəyirdəkli meyvə ağaclarının zərərverici həşəratları və onların entomofaqları", "Naxçıvan Muxtar Respublikasının faunası: Balıqlar və suda-quruda yaşayanlar", "Naxçıvanda quşların müşahidəsi" və digər kitablarda əksini tapıb.

Zooloqlarımız dünyanın ən nəhəng ensiklopediyası, zəngin informasiya mənbələrindən biri olan Vikipediyada 70 məqalə yerləşdirib.

Şöbə əməkdaşlarının əldə etdikləri nəticələrlə tanış olan xarici ölkə mütəxəssisləri faunamızın növlərinin zənginliyi ilə seçilən quşlar, balıqlar, kəpənəklər, arıkimilər ilə maraqlanmış və müxtəlif illərdə Naxçıvana səfər etmişlər. Tədqiqat dövründə zooloqlarımız Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında Türkiyə, Rusiya, İngiltərə, Almaniya, Hollandiya, Çexiya, İrlandiya, Macarıstan və digər xarici ölkələrin elmi-tədqiqat institutlarının mütəxəssisləri ilə 20-yə yaxın beynəlxalq tərkibli ekspedisiyalarda yaxından iştirak ediblər. Eyni zamanda AMEA Zoologiya İnstitutunun Quru onurğasızları laboratoriyasının əməkdaşları ilə birgə tədqiqatlar aparıblar. Alimlərimizin əldə etdiyi nəticələr "Web of Science", "Scopus" və başqa elmi bazalara daxil olan impaktfaktorlu jurnallarda işıq üzü görüb. Bir çox xarici ölkələrin və Azərbaycanın elmi müəssisələrinin tədqiqatçıları ilə sıx elmi əməkdaşlığı davam etdirən şöbə əməkdaşları Türkiyə, İran, Rusiya, Gürcüstan, Qazaxıstan, Bolqarıstan, Macarıstan, Çexiya, Polşa və digər xarici ölkələrdə keçirilən beynəlxalq konqres, konfrans və seminarlarda maraqlı məruzələrlə iştirak ediblər.

Şöbədə 2006-cı ildən Azərbaycan Respublikası üzrə Ümumdünya Təbiəti Mühafizə Fondunun "Naxçıvan Muxtar Respublikasında bəbirin monitorinqinin aparılması və onun mühafizə strategiyası" adlı beynəlxalq qrant layihəsi yerinə yetirilir. Əməkdaşlardan biologiya elmləri doktoru İsmayıl Məmmədov və Pərviz Fətullayev digər məsul qurumların mütəxəssisləri ilə layihə çərçivəsində muxtar respublika ərazisində yayılan nadir və nəsli kəsilmək üzrə olan vəhşi heyvan növlərinin aşkar edilməsi məqsədilə mütəmadi olaraq monitorinqlər keçirirlər. Aparılan uzunmüddətli araşdırmalar zamanı Zəngəzur dağ silsiləsinin cənub-qərb yamaclarında



bəbir, cüyür ailələri və Xəzər uları, Səhra kəkliyi, Hind tirəndazı kimi nadir onurğalı heyvan növlərinin normal yaşam şəraitinin bərpa olunduğu qeydə alınıb. Qeyd edək ki, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq (İDEA) və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) muxtar respublika ərazisində quraşdırılan foto və videoçəkiliş qurğuları vasitəsilə heyvanların yaşam tərzinə müdaxilə etmədən onların həm şəkilləri, həm də videogörüntüləri əldə olunur. Bu istiqamətdə işlər hazırda davam etdirilir. Fondun "Asiya muflonu və bezoar keçisinin Azərbaycanda qorunma strategiyası" mövzusunda qrant layihəsi, bununla yanaşı, əməkdaş Arzu Məmmədovun iştirak etdiyi Azərbaycan Ornitoloji Cəmiyyəti ilə birlikdə Beynəlxalq "BirdLife" təşkilatının Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında "Yuvalayan quş növlərinin xəritələşdirilməsi" adlı qrant layihəsi uğurla yerinə yetirilib.

*Naxçıvan Muxtar Respublikasının fauna biomüxtəlifliyinə daxil olan onurğasız və onurğalı heyvanlar, onların tədqiqi, qorunması və istifadə imkanlarının müəyyənləşdirilməsi istiqamətində şöbə əməkdaşları elmi-praktik və iqtisadi əhəmiyyət daşıyan tədqiqat işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyətlərini uğurla davam etdirir. Son illər şöbəyə yeni qəbul edilmiş gənc elmi işçilərin təqiqatçılıq sahəsində ümidverici mütəxəssislər kimi özlərini doğrultmaları onu deməyə əsas verir ki, yaxın gələcəkdə şöbədə daha geniş tədqiqatlar aparılacaq və onlar ölkə elminə yeni töhfələr verəcəklər.*

**Türkanə BƏYLƏRLİ**
**AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti üzrə mütəxəssisi**

## Təsərrüfathesablı dövlət müəssisələri üçün təlimlər keçirilir



*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində mühasiblər üçün "Kommersiya təşkilatlarında praktik mühasibatlıq" adlı 3 günlük təkmilləşdirici təlimə start verilib.*

Təlimi giriş sözü ilə Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova açaraq mövzuların aktuallığı və mahiyyəti barədə iştirakçıları məlumatlandırıb. Mərkəzin direktoru, kommersiya təşkilatlarında tətbiq olunan memorial order formalarının mahiyyətini açıqlayıb, debet və kredit üzrə dövriyyələrə uyğun olaraq tərtib edilən yığım cədvəlləri, "Baş kitab" və dövriyyə balansı haqqında slaydlar vasitəsilə məlumat verib.

Təlimin ikinci günündə Maliyyə Nazirliyinin Dövlət aparatının və Hüquq-mühafizə orqanlarının maliyyəsi şöbəsinin aparıcı məsləhətçisi Pərvin Cümşüdova maliyyə hesabatının məqsədi, elementləri, maliyyə bərabərliyinin mahiyyəti, ikili yazılış və maliyyə hesabatları formalarının hazırlanması mərhələləri ətraflı izah olunub.

Növbəti gün Naxçıvan Şəhər İcra Hakimiyyətinin sektor müdiri Elvin Əlimərdanov məzuniyyətin növləri və müddətləri haqqında məlumat verərək məzuniyyət vaxtı üçün əməkhaqqının ödənilməsi qaydalarına aydınlıq gətirəcək.

Təlimin sonunda iştirakçılara mərkəzin sertifikatları təqdim olunacaq.

**Naxçıvan Muxtar Respublikası**
**Maliyyə Nazirliyinin**
**mətbuat xidməti**

## Humanitar tibbi aksiya olub

*1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə Şahbuz şəhərindəki Ahıllar Evində yaşayan sakinlərin tibbi müayinəsi aparılıb.*



Naxçıvan Muxtar Respublikası Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən tibbi aksiyada Naxçıvan Muxtar Respublika Xəstəxanasının 17 ixtisaslı həkimi iştirak edib. Sakinlər ayrı-ayrılıqda ixtisaslı həkimlər tərəfindən tibbi müayinə olunublar. Aksiyada ilk dəfə olaraq tibbi kartların tətbiqi sistemindən istifadə olunub. Həmin kartlarda ahılların müayinə və müalicəsi, istifadə etdiyi dərmanlar, xəstəlik diaqnozları öz əksini tapır. Bu isə sonradan həmin şəxslərin müayinə üçün səhiyyə müəssisələrinə müraciəti zamanı əlavə tibbi prosedurlardan keçməsi, müalicədə vaxt itkisi kimi problemlərin aradan qaldırılmasında mühüm rol oynayır.

Xəstəxana tərəfindən ilkin tibbi yardım üçün ləvazimat, dərman və sarğı materialları Ahıllar Evinin tibb məntəqəsinə təhvil verilib.

Ahıllar Evinin sakini Məhərrəm İbrahimov göstərilən bu xidmətə görə minnətdarlığını bildirib.

Həmin gün həkim briqadası Şahbuz rayonunun Yuxarı Qışlaq və Badamlı kəndlərində evlərində sosial xidmət göstərilən ahılların və onların ailə üzvlərinin də müayinələrini aparıb.

**Naxçıvan Muxtar Respublikası**
**Səhiyyə Nazirliyinin mətbuat xidməti**

*Kimi onu Allahın töhfəsi kimi qiymətləndirir, kimi insan qəlbini fəth edən qeyri-adi güc hesab edir, kimi də onun bir möcüzə olduğunu, insan əhval-ruhiyyəsinə, ümumiyyətlə, daxili aləminə böyük təsir göstərdiyini etiraf edir. Bəli, həyatımızın ayrılmaz hissəsi, sevincli, qürurlu, kədərli anlarımızın yoldaşıdır musiqi...*

## Muxtar respublikamızda milli musiqimiz yaşadılır, təbliğ olunur





Musiqi dinləyərkən, sanki ucsuz-bucaqsız bir aləmdə hiss edirik özümüzü. Klassik musiqi qəlbimizə, şən, ritmik musiqi əhvalımıza, caz, rok, pop musiqiləri isə ruhumuza təsir edir. Yaxşı və yaxud pis musiqi yoxdur, hər insanın fərqli musiqi zövqü vardır. Bədii zövqü tərbiyə edən, insanın mənəviyyatını ucaldan, onun daxili aləmini zənginləşdirən musiqi nümunələrimiz kifayət qədər çoxdur. Musiqi psixoloji gücə malik qüvvə kimi təbabətdə bəzi xəstəliklərin müalicəsinə də kömək edir. Musiqi həm də xalqları birləşdirən, onların qarşılıqlı anlaşmasını təmin edən universal vasitədir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, hər bir xalqın özünəməxsus musiqi mədəniyyəti vardır. Mahnı, musiqi qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin insan mənəviyyatının kamilləşməsində oynadığı rolu heç bir vasitə əvəz edə bilməz.

Doğma Vətənimiz Azərbaycanın çoxəsrlik inkişaf tarixinə malik zəngin musiqi sənəti, mədəniyyəti vardır. Qobustan və Gəmiqaya rəsmlərində, "Kitabi-Dədə Qorqud"da, Nizaminin, Füzulinin əsərlərində, Səfiəddin Urməvi, Əbdülqadir Marağayi, Mir Möhsün Nəvvab kimi tanınmış alimlərin risalələrində qədim və orta əsr musiqi mədəniyyətinin, ifaçılığının yüksək inkişaf səviyyəsini aydın görürük. Bu gün Azərbaycan muğamı dünya musiqişünaslarının, sənətsevərlərinin diqqətini cəlb edir və təsadüfi deyildir ki, UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-maddi mədəni irsinin şah əsəri elan olunub.

Azərbaycanın ayrılmaz hissəsi olan muxtar respublikamızda da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir, musiqi ənənələrimiz yaşadılır, təbliğ edilir. Diyarımızda əlamətdar və bayram günlərində, eləcə də insanların asudə vaxtlarının səmərəli təşkili üçün mütəmadi olaraq konsert proqramları həyata keçirilir. Mövcud pandemiya dövründə də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə onlayn konsert proqramları təşkil edildi. Buna misal olaraq Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyi üzvlərinin, Naxçıvan Dövlət Filarmoniyasının "Muğam studiyası"nın, Mahnı və Rəqs Ansamblının, Xalq Çalğı Alətləri Orkestrinin, "Muğam üçlüyü"nün, "Simli kvartet"in onlayn konsertlərini, filarmoniyanın solisti, gənc vokalist İlkin Abdullayevin solo konsertini, Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin 28 May – Respublika Gününə həsr olunmuş onlayn konsert proqramını, bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinə həsr olunmuş Naxçıvan Dövlət Filarmoniyası solistlərinin onlayn solo konsertlərini, Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibətilə təşkil olunmuş onlayn konsertini və digərlərini göstərmək olar. Onlayn konsert proqramlarının Naxçıvan Dövlət Televiziyasında, nazirliyin "Youtube" kanalı və sosial şəbəkə hesablarından canlı olaraq yayımlanması isə təkcə Naxçıvanda deyil, ölkəmizin digər yerlərində də maraqla izlənilib. Burada səsləndirilən xalq mahnıları, təsniflər və Azərbaycan bəstəkarlarının yaradıcılığından nümunələr həm milli musiqimizin təbliğinə, həm də insanların asudə vaxtlarının səmərəli təşkilinə əməli töhfədir.

## "İstedadlı rəssamlar sorağında" adlı sərgi-müsabiqə təşkil edilib

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda İrs "İstedadlı rəssamlar sorağında" adlı sərgi-müsabiqə keçirilib.*



Tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək müsabiqənin əhəmiyyətindən söz açıb, sərgidə nümayiş olunan əsərlərin məna və məzmun baxımından fərqləndiyini qeyd edib. Bildirilib ki, muxtar respublikamızda istedadlı uşaqların, yeniyetmələrin, gənclərin üzə çıxarılması, onların yaradıcılığının dəstəklənməsi, yetişməkdə olan nəslin təsviri sənətə olan marağının artırılması məqsədilə ənənəvi olaraq sərgi-müsabiqələr təşkil edilir. Qeyd olunub ki, rəsm sərgisində muxtar respublikamızın ümumtəhsil, eləcə də məktəbdənkənar təhsil müəssisələrində oxuyan şagirdlərin əl işləri sərgilənir. Onların yağlı boya, qara qələm, sərbəst texnika ilə çəkdikləri portret, mənzərə, natürmort, süjetli kompozisiyalar ümidvericidir.

Ülviyyə Həmzəyeva çıxışının sonunda müəllim və şagirdləri yeni tədris ilinin başlanması münasibətilə təbrik edib, rəsm həvəskarlarına uğurlar arzulayıb.

Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov çıxış edərək muxtar respublikamızda uşaqların, gənclərin rəssamlıq sənətinə böyük maraq göstərmələrindən danışıb.

Əl işlərinə görə fərqlənənlərə diplomların təqdimindən sonra rəsm həvəskarları üçün qısa film nümayiş edilib, sərgiyə baxış olub. Cabbar Əliyevin "Naxçıvanımız", Nilufər Quluzadənin "Sehrli qız", Murad Qasımlının "Şəhid anası", Şənay Zamanlının "Musiqi alətləri", Şəhla Babayevanın "Fənər", Fidan Quliyevanın "Kompozisiya" kimi rəsm əsərləri maraqla qarşılanıb.

Qeyd edək ki, Sərgi Salonunda 20-dən çox istedadlı şagirdin 100-ə yaxın əl işi nümayiş olunur. Sərgi bir həftə davam edəcək.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Hüquqi maarifləndirmə günün tələbidir

*Sual: Uşağın ad, ata adı və soyad daşımaq hüququ necə müəyyən edilir?*

**Cavab:** Azərbaycan Respublikası Ailə Məcəlləsinə əsasən uşaq ad, ata adı və soyad daşımaq hüququna malikdir. Uşağa ad valideynlərin razılığı ilə, ata adı isə atasının adına görə verilir. Uşağın soyadı, bir qayda olaraq valideynlərin soyadı ilə müəyyən edilir. Valideynlərin soyadları müxtəlif olduqda uşağa valideynlərin razılığı ilə atanın və ya ananın soyadı verilir. Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. Valideynlər arasında fikirayrılığı yarandıqda müvafiq icra hakimiyyəti orqanı tərəfindən həll olunur. Atalıq müəyyən olunmadıqda uşağa ad ananın göstərişi ilə ata adı Ailə Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq uşağın atası kimi qeydə alınan şəxsin adına görə, soyad isə ananın soyadına görə verilir.

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti*

*Yurdumuzun nemətləri*

## Can dərmanı – zoğal

***Növbəti yazımızda ilin bu vaxtı ən çox ehtiyac duyulan bir meyvədən – zoğaldan bəhs edəcəyik. Yazda bütün ağaclardan tez çiçəkləyən zoğal o meyvələrdəndir ki, onu əkib-becərmək, bar vədəsinə çıxarmaq böyük bir zəhmət və qulluq tələb etmir. Zoğal ağacı 2 metrədək boy atır, hər il barverən məhsuldar giləmeyvədir. Əvvəllər yabanı halda muxtar respublikanın dağlarında, meşə massivlərində çox rast gəlinən zoğal sonralar insanlar tərəfindən mədəni əkinçiliyə gətirilib. Qış aylarının əvəzolunmaz müalicə vasitələrindən olan zoğalın tərkibində vitamin, mineral və güclü antioksidantlar var.***



Tarixçi Rəşidəddin Fəzlullah Qafanın Naxçıvan tümənınə aid olduğunu yazarkən onun kənd təsərrüfatına həsr edilmiş "Asar və əhya" ("Təsir və dirçəliş") əsərindəki "zoğal Naxçıvana aid olan Qafanın bəzi yerlərində bitir" qeydini oxuyarkən, bu bitkinin muxtar respublika ərazisində uzaq keçmişdən bəri yetişdirildiyi qənaətinə gəlirik. Hətta Şahbuz və Culfa rayonlarının Keçili və Milax kəndlərinin sərhədində qədim bir yaşayış məntəqəsinin adı "Zoğala" kəndi kimi yaddaşlarda yaşamaqdadır.

Zoğal muxtar respublikamızda ən çox Ordubad rayonunun Nüsnüs kəndində yetişdirilir. Çünki kəndin iqlimi bu bitkinin yaxşı inkişafı və məhsuldarlığı üçün çox əlverişlidir. Bu səbəbdəndir ki, bu gün Nüsnüsdə hansı həyətyanı sahəyə baxsan, zoğal ağacına rast gələrsən. Kənddə bu meyvəni becərməkdə ad-san qazanan təsərrüfatçılardan biri Kamal Lütfəliyevdir. O, uzun illərdir ki, bu sahə ilə məşğul olduğundan zəngin təcrübəyə malikdir. Kamal kişi zoğal bağını 20 ildir ki, salıb. Bağında 40-a yaxın zoğal ağacı var. Ağacların budaqlarının bardan əyilməsi lazımi aqrotexniki qayğının, çəkilən zəhmətin bəhrəsidir. Xırdameyvəli cır və irimeyvəli hibrid, armudu, qabığı nazik qırmızı zoğal yetişdirən təsərrüfatçı calaq üsulu ilə sarı zoğal növünü də əldə etməyi bacarıb.



Müsahibimin sözlərinə görə, zəngin vitamin tərkibinə malik olan zoğal fevral-mart aylarında çiçəkləyir, barvermə vaxtı isə avqust-sentyabr aylarına düşür. Kamal Lütfəliyev deyir ki, bu ağaca el arasında "şeytanaldadan" da deyirlər. Bu deyim çox ehtimal ki, ağacın tez çiçəkləyib, gec bar verməsi ilə bağlıdır. Deməli, bu müddət ərzində torpaqda olan ən faydalı elementləri mənimsəyərək meyvəsində toplamaq imkanı əldə edir. Odur ki, qırmızı, tünd-qırmızı, qara-qırmızı olan zoğal növlərinin hər birinin tərkibi faydalı elementlərlə zəngindir.

Təsərrüfatçının dediyinə görə, bu il zoğal ağacları keçən ilə nisbətən daha çox bar verib. Bu hal onun qiymətinə də öz təsirini göstərib. Belə ki, əvvəllər kilosu 2-3 manat arasında dəyişən zoğal bu il 1 manatdan satışa göndərilir. Alıcılıq qabiliyyəti də yüksəkdir. Çünki çiçəklərindən tutmuş bütün komponentlərinə qədər can dərmanı olan Nüsnüs zoğalından ətirli mürəbbə, kompot və digər məhsullar hazırlanır.

Kənd sakini Firuzə Məmmədəliyevanın təbirincə Ordubadda zoğal mürəbbəsi "mürəbbələrin şahı" sayılır. Çünki o, el arasında soyuqdəymənin ən kəsərli əlacı kimi qiymətləndirilir. Özü də qaydasında bişirilməlidir ki, ətrini də, gözəlliyini də özündə saxlasın. Zoğal meyvələri yetişdikcə turşluğu azalır, şəkəri isə xeyli artır. Odur ki, onu al-qırmızı rəng aldıqda toplamaq məsləhətdir. Bu meyvədən hazırlanan keyfiyyətli lavaş da rayon əhalisinə çoxdan məlumdur. Lavaşdan bir sıra xörəklərdə dadverici, iştahaartırıcı, mədənin həzm prosesini yaxşılaşdırıcı vasitə kimi geniş istifadə edilir.

Sakinlərin bu giləmeyvəyə belə böyük maraq göstərməsi isə əbəs deyil. Maddələr mübadiləsinin nizamlanmasında, mədə xəstəliklərində və bir sıra digər problemlərdə faydalı olan zoğal, xüsusilə immun sisteminin gücləndirilməsində əhəmiyyətli təsirə malikdir. Ona görə də qış aylarında mütəmadi istifadə edilir.

Əsrlərdən bəri ulularımızın dini-fəlsəfi, bədii düşüncələrində müstəsna yer tutaraq gələcək həyatı, dünyagörüşü istiqamətləndirən, formalaşdıran ağac kultu bir inanc sistemi olaraq bu günümüzə qədər gəlib çıxıb. Zoğal ağacı ilə bağlı inancların izlərinə isə muxtar respublikamızın da bir çox yerlərində rast gəlinməkdədir. Deyirlər ki, çinar, dağdağan, dəmirağac, palıd, söyüd, tut ağacları kimi zoğal ağacı da müqəddəs hesab olunur. Əkildikləri yerlər pir və ocaq kimi çağırılır. Onu kəsmək, qol-budağını qırmaq günah sayılır. Bəlkə, ona görədir ki, bir çox mənbələrdə "zoğal ağacının altında yatmazlar", "zoğal ağacını kəsməzlər", "zoğal ağacını yandırmazlar" kimi deyimlərə rast gəlirik. Əsrlərboyu bu ənənə, hətta İslam öncəsi tarixə gedib çıxır. Bir rəvayətə görə, Şah İsmayıl Xətai balaca olanda onu Ağqoyunlu dövlətinin adamlarından yayındırmaq üçün zoğal çubuqlarından hörülmüş cəvərana qoyub ağacın başında gizlədiblər. İsa Peyğəmbərin də zoğal ağacında çarmıxa çəkildiyi deyilir. Məşhur xristian əfsanəsinə görə, həmin hadisədən sonra ağacın boyu kiçilərək indiki formaya düşüb. Qədim yunan salnaməçisi və coğrafiyaçısı Strabonun yazdığına görə, məşhur bir loğman soyuq payız günü Qanıx çayının sahilində oturub çayda çimən uşaqlara tamaşa edirmiş. Suya baş vurub çimən uşaqların soyuqlayıb xəstələnəcəyindən narahat olan loğman görür ki, uşaqlar çaydan çıxıb kənardakı zoğal ağacına dırmaşaraq meyvələri dərib yeməyə başladılar. Loğman öz-özünə fikirləşir ki, bu xalq dərdinin dərmanını bildiyinə görə böyük xalqdır. Soyuqdəyməni aradan götürən, bir çox xəstəliklərin müalicəsi üçün əhəmiyyətli olan vasitə kimi zoğal xalq təbabətində indiyə kimi istifadə olunur.

✍ **Gülcamal TAHİROVA**

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 699